# Nizami rayonu: 2015-ci ilin sosial-iqtisadi göstəriciləri uğurludur



***Dünən Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyətində 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirildi. Tədbir iştirakçıları öncə müasir Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin rayon icra hakimiyyəti binasının foyesindəki büstü önünə gül dəstələri düzdülər.***

Rayonun sənaye, təhsil, səhiyyə, mədəniyyət, xidmət sahələrinin, hüquq-mühafizə orqanlarının, eləcə də ictimaiyyət nümayəndələrinin iştirak etdikləri yığıncağı giriş sözü ilə Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov açdı.

Hesabat yığıncağı Nizami rayonunun 2015-ci ilin sosial-iqtisadi inkişafını əks etdirən filmin nümayişi ilə davam etdirildi. Rayonda həyata keçirilmiş geniş miqyaslı abadlıq-quruculuq işlərindən, Prezident İlham Əliyevin rayon ərazisindəki açılış və təməlqoyma mərasimlərindəki iştirakından bəhs edən film yığıncaq iştirakçılarının dərin marağına səbəb oldu. Belə ki, kadrlardan da aydın olduğu kimi, ötən il Nizami rayonunda abadlıq-quruculuq işləri bir qədər də sürətlənmiş, sakinlərin firavan həyatının təminatına hesablanmış mühüm tədbirlər reallaşdırılmışdır.

Sonra rayon icra hakimiyyətinin başçısı Arif Qasımov hesabat məruzəsi ilə çıxış etdi. Qeyd olundu ki, 2015-ci ildə ölkəmizin ümumi inkişafına mühüm töhfələr vermiş Nizami rayonunun iqtisadi göstəricilərində xeyli artım müşahidə olunmuş, rayon üzrə ümumi məhsul buraxılışının həcmi 488,9 manat təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 1,9 faiz çoxdur. İl ərzində sənayenin dövlət sektorunda 376,4 milyon manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir. Müəssisələr tərəfindən istehlakçılara ümumi dəyəri 521,7 milyon manatlıq hazır məhsul göndərilmişdir ki, bu da illik istehsal həcminin 106,7 faizini təşkil edir. Ötən il neft və təbii qaz hasilatı ilə əlaqədar olan xidmətlərin həcmi 8,1 dəfə, taxta pəncərə istehsalı 5,4 dəfə, karton məmulatları 22 faiz, polipropilen borular 2,3 dəfə, plastik məmulatları 11,1 faiz, plastik qapı və pəncərə 2,4 dəfə, sement istehsalı 36,8 faiz, elektrik enerjisi 10,2 faiz artmışdır. 2015-ci ildə rayonun istehsal müəssisələri tərəfindən 5,1 milyon manatlıq mal ixrac olunmuşdur.

2015-ci ildə rayonun tikinti təşkilatları öz gücləri ilə 398,3 milyon manatlıq podrat işləri həyata keçirmişlər. İl ərzində rayon iqtisadiyyatının və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələri hesabına əsas kapitala 168,6 milyon manat həcmində investisiya yönəldilmiş, 38,6 milyon manatlıq əsas fondlar istifadəyə verilmişdir. İl ərzində istifadə edilmiş investisiyaların 132,2 milyon manatı və ya 78,4 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir. Ötən il rayonda pərakəndə ticarət dövriyyəsinin həcmi 2 milyard 158,3 milyon manata, əhaliyə göstərilən pullu xidmətlərin real həcmi isə 300,7 milyon manata çatmışdır. Hesabat ilində rayon üzrə 327,5 milyon manatlıq rabitə və 117,9 milyon manatlıq nəqliyyat xidmətləri göstərilmişdir ki, bu da əvvəlki illə müqayisədə müvafiq olaraq 16,1 faiz və 31,1 faiz artıqdır.

Son illər bütün ölkədə olduğu kimi, Nizami rayonunda da məşğulluq strategiyasının həyata keçirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirildiyini diqqətə çatdıran A. Qasımov bildirdi ki, ötən il Nizami rayonunda 2405 yeni iş yeri yaradılmışdır ki, bunun da 350-si yeni açılmış müəssisə və təşkilatların, 237-si mövcud müəssisə və təşkilatların, 1818-i isə fiziki şəxslərin payına düşmüşdür. Bütövlükdə isə 2003-cü ildən indiyə kimi rayonda 28662-si daimi olmaqla 28759 yeni iş yeri açılmışdır.

Hazırda Nizami rayonu paytaxtımızın ən abad, ən yaraşıqlı guşələrindən birinə çevrilmişdir. Bu, rayonda həyata keçirilən geniş miqyaslı abadlıq-quruculuq işlərinin məntiqi nəticəsidir. Yeri gəlmişkən, rayon ərazisində reallaşdırılan abadlıq-quruculuq tədbirləri dövlət başçısı İlham Əliyevin daimi diqqət mərkəzində olduğu üçün bu işlər xüsusi zövqlə aparılır. Ötən il rayonun elektrik enerjisi, qaz, içməli su və istilik təchizatı sahələrində həyata keçirilən tədbirlər bu sahədə xidmətin səviyyəsinin xeyli yaxşılaşmasına səbəb olmuşdur. Bununla yanaşı, hesabat ili rayonun təhsil, səhiyyə, mədəniyyət və idman sahələri üçün də yüksək nailiyyətlərlə zəngin olmuş, bu sahədə yüksək uğurlar əldə olunmuşdur.

Tədbirdə çıxış edən Milli Məclisin deputatları Sədaqət Vəliyeva, Flora Qasımova və Rasim Musabəyov 2015-ci ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən mühüm işlərdən, sosial və iqtisadi sahələrdə əldə olunmuş uğurlardan söhbət açdılar, Azərbaycanın sosial-iqtisadi inkişafında paytaxtın Nizami rayonunun da mühüm rol oynadığını vurğuladılar.

Hesabat yığıncağında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Tağı Tağıyev çıxış edərək 2015-ci ildə qlobal maliyyə böhranına baxmayaraq, ölkə həyatının bütün sahələrində həyata keçirilmiş islahatlar və əldə olunmuş yeni nailiyyətlər barədə danışdı, nəzərdə tutulmuş bütün sosial proqramların uğurla icra olunduğunu vurğuladı. Hesabat dövründə rayonun sosial-iqtisadi inkişafı istiqamətində görülmüş işləri yüksək dəyərləndirən natiq geniş vüsət alan abadlıq-quruculuq işləri barədə öz mülahizələrini bildirdi, Nizami rayonunun ölkəmizin bütün sahələrdə inkişafına bundan sonra da yeni töhfələr verəcəyinə əminliyini ifadə etdi.

Tədbirə yekun vuran Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov 2016-cı ildə rayonda həllini gözləyən bir sıra məsələlərdən söhbət açdı, bununla bağlı müvafiq qurumların rəhbərlərinə konkret tapşırıqlar verdi.

Sonra Nizami Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə təşkil etdiyi "Nizami rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və perspektivlər" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin, eləcə də 2014-2015-ci tədris ilində keçirilmiş "Ən yaxşı ümumtəhsil müəssisəsi" və "Ən yaxşı müəllim" müsabiqələrinin qalibləri mükafatlandırıldılar.

Yığıncağın sonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə rayon ictimaiyyəti adından müraciət qəbul olundu.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***